**AZƏRBAYCAN RESPUBLİKASININ TARİF (QİYMƏT) ŞURASI**

**QƏRAR № 17**

**Bakı şəhəri, 28 noyabr 2016-cı il**

**Elektrik enerjisinin ölkədaxili tariflərinin tənzimlənməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 dekabr tarixli 341 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası haqqında Əsasnamə"yə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 30 dekabr tarixli 247 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət tənzimlənməsi tətbiq olunan tariflərin (qiymətlərin) formalaşması və tətbiqi üzərində dövlət nəzarətinin təmin edilməsi Qaydaları"na uyğun olaraq, Azərbaycan Respublikasının Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin, "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin və "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin müraciətlərini nəzərə alaraq Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası QƏRARA ALIR:

1. Elektrik enerjisinin ölkədaxili tarifləri təsdiq edilsin (əlavə olunur).

2. Nəzərə alınsın ki:

2.1. bu qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş əlavənin cədvəl bölməsinin 2-ci sətri ilə müəyyən edilmiş tarifə elektrik enerjisinin istehsalı və elektrik şəbəkələrinə ötürülməsi ilə bağlı bütün xərclər daxildir;

2.2. həmin əlavənin cədvəl bölməsinin 2.1.1-ci və 2.1.2-ci sətirləri ilə müəyyən edilmiş tariflərlə 2-ci sətri ilə müəyyən edilmiş topdansatış tarifi arasında yaranan fərq "Azərenerji" ASC-nin maliyyə-təsərrüfat fəaliyyətinə aid edilir;

2.3. elektrik enerjisinin digər təsərrüfat subyektlərinə məxsus şəbəkə və ötürücü qurğular vasitəsi ilə tranzit ötürülməsi həmin əlavənin cədvəl bölməsinin 3-cü sətri ilə müəyyən edilmiş elektrik enerjisinin tranzit ötürülməsi tarifi ilə həyata keçirilir;

2.4. elektrik enerjisi tranzit ötürüldüyü təqdirdə, tranzit ötürülmə xərcləri həmin əlavənin cədvəl bölməsinin 2.1-ci sətrində nəzərdə tutulan hallarda 2.1.1-ci və 2.1.2-ci sətirlərlə müəyyən edilmiş tariflərə əlavə edilməklə istehlakçı, digər hallarda isə elektrik enerjisinin satışını həyata keçirən təsərrüfat subyekti tərəfindən ödənilir;

2.5. həmin əlavənin cədvəl bölməsinin 4.1.1-ci və 4.1.2-ci sətirlərində aylıq istehlak həcmi dedikdə elektrik enerjisinin ardıcıl 30 təqvim günü ərzindəki istehlak həcmi nəzərdə tutulur;

2.6. bu qərarın məqsədləri üçün əhali istehlakçı qrupu dedikdə elektrik enerjisini şəxsi tələbatını ödəmək məqsədi ilə istifadə edən məişət abonentləri başa düşülür.

3. “Azərenerji” ASC-nin istehsalı olan istilik enerjisinin “Azəristiliktəchizat” ASC-yə topdansatış tarifi ƏDV daxil olmaqla 3 manat/Qkal, digərlərinə isə 40 manat/Qkal səviyyəsində müəyyən edilsin.

4. 2016-cı il 1 dekabr tarixinədək ölkə daxilində elektrik enerjisinin dəyəri bu qərardan əvvəl qüvvədə olmuş tariflərə uyğun olaraq hesablansın.

5. “Azərenerji” ASC-yə və “Azərişıq” ASC-yə tapşırılsın ki, elektrik enerjisi üzrə itkilərin azaldılması istiqamətində müvafiq tədbirlər görsünlər və 2017-2019-cu illər üzrə itkilərin azaldılması ilə bağlı qrafiki Azərbaycan Respublikasının Tarif (qiymət) Şurasına təqdim etsinlər.

6. “Elektrik enerjisinin ölkədaxili tariflərinin tənzimlənməsi barədə” Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 2016-cı il 14 iyul tarixli 11 nömrəli Qərarı ləğv edilsin.

7. Bu qərar 2016-cı il 1 dekabr tarixindən qüvvəyə minir.

**Azərbaycan Respublikası**
**Tarif (qiymət) Şurasının sədri** **Şahin Mustafayev**